# Heydər Əliyev dühasına minnətdarıq

Milli Qurtuluşumuz ölkəmizin tarixində möhtəşəm hadisədir, bizlərə və gələcək nəsillərə inkişaf üçün sarsılmaz bir təməl olmuşdur. Bu təməl üçün respublikamızın hər sahədə qazandığı uğurlara görə birinci növbədə Heydər Əliyev dühasına minnətdarıq. O, doğma xalqın milli şüurunu dirçəldərək onda gələcəyə tükənməz ümidlərlə baxmaq vərdişi yaratdı. Məhz həmin keyfiyyətlər demokratik, hüquqi, dünyəvi dövlətin bərqərar olmasında və inkişafında mühüm rol oynadı.

Bu gün əldə edilən nailiyyətlər, ölkəmizdəki dinamik yüksəliş, uğurlu göstəricilər məqsədyönlü şəkildə aparılan islahatların nəticəsidir. Dövlət başçısının təşəbbüsləri ilə son illər əhalinin rifahının daha da yaxşılaşdırılmasında, yeni iş yerlərinin açılmasında, təhsil, səhiyyə, mədəniyyət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsində möhtəşəm işləri görməmək mümkün deyildir.

İqtisadi layihələrlə paralel sosial proqramlar ardıcıl olaraq yerinə yetirilir, insanların daha firavan yaşaması üçün tədbirlər həyata keçirilir. Son vaxtlar əmək haqlarının və pensiyaların həcminin artırılması, yaşayış meyarının çoxaldılması, təhsil, səhiyyə, mədəniyyət və digər xidmət sahələrində görülən tədbirlər vətəndaşların rifah halının yüksəldilməsinə yönəldilmişdir.

Qurtuluşumuza gedən yolda xalqımız çətin sınaqlardan keçmişdir. Bu yolların əsas və çətin mərhələsində ən məsuliyyətli liderlik missiyasını Heydər Əliyev öz üzərinə götürdü. Ulu öndər bütün həyatını, bilik və təcrübəsini, zəkasının qüdrətini, qüvvə və bacarığını xalqın xoş gələcəyinə, onun bəlalardan və məhrumiyyətlərdən xilas olmasına sərf etdi və inkişafımızın gələcəyə hesablanmış strategiyasını müəyyənləşdirdi. Onun dərin zəkası sayəsində ölkəmiz demokratik, hüquqi inkişaf mövqelərinə çıxdı, qüdrətli şəxsiyyətin işıqlı ideyaları dövlətimizin müstəqilliyinin daha da möhkəmləndirilməsi üçün əzəmətli bir təməl oldu. Heydər Əliyev diplomatiyası Azərbaycanı çox qısa müddət ərzində bütün dünyaya tanıtdı, onun beynəlxalq mövqelərinin daha da möhkəmlənməsini təmin etdi.

Milli Qurtuluş Gününü təntənə ilə qeyd etdiyimiz bu günlər bir daha deməyə haqqımız çatır və söyləməyə borcluyuq ki, dövlətçilik ənənələrindən bəhrələnmiş yeni siyasət Azərbaycana yeni həyat, müasirlik, qarşısıalınmaz inkişaf bəxş etmişdir. Bu siyasətin müəllifi olan ulu öndərimiz müasir hüquqi və dünyəvi dövlətin qurulması, bu dövlətdə yaşayan insanların hüquq və azadlıqlarının müdafiəsi sahəsində çox böyük iş görüb, tariximizdə heç vaxt bu qədər böyük və möhtəşəm dövlətçilik fəaliyyəti həyata keçirilməyib. Bizim hazırkı daxili və xarici siyasət konsepsiyamız ən geniş mənada dövləti xalqa, xalqı dövlətə möhkəm və qırılmaz tellərlə bağlayır.

Bütün şüurlu həyatını ölkəmizin çiçəklənməsinə həsr etmiş Heydər Əliyevin müqəddəs Qurtuluşun işığından qaynaqlanan ideyaları artıq neçə illərdir ki, uğurla həyata keçirilir. Bu ideyaların ən başlıca məqsədi xalqa, dövlətə sədaqətlə xidmət etmək, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaqdır. Tarixi baxımdan o qədər də böyük olmayan son illər ərzində dövlətimizin sosial-iqtisadi, ictimai-siyasi, mədəni həyatında misilsiz dəyişikliklər baş verib. Bundan ötrü Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının həyata keçirilməsinin yekunlarına diqqət yetirmək kifayətdir. Bu illər ərzində iqtisadiyyatın inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması, şəhər və kəndlərin abadlaşdırılması və müasirləşdirilməsi sahələrində elə nailiyyətlər qazanılmışdır ki, bunları əvvəlki illərdə müşahidə etməmişdik. İndi razılıqla qeyd etmək olar ki, Heydər Əliyevin qurduğu təməl üzərində yeni-yeni tədbirlər həyata keçirilir.

Biz inanırıq ki, xalqımızın nailiyyətləri bundan sonra daha da möhkəmlənəcək, müstəqil respublikamız öz qüdrətini artıracaqdır. Biz daha güclü dövlətə çevriləcəyik, heç kəsdən nə siyasi, nə də iqtisadi asılılığımız olacaq. Möhtərəm Prezidentimiz bunu dəfələrlə bəyan etmişdir. Müstəqilliyimizin başlıca göstəricisi də məhz budur.

Yenə də təkrar edirəm ki, xalqımız 1993-cü ildən sonrakı tariximiz ərzində görülən işlər əvvəllər heç vaxt görülməyib. Buna görə də bizim nəslin insanları, övladlarımız, bütün Azərbaycanın oğul və qızları dövlətimizi göz bəbəyi kimi qorumalı, yaşatmalı və inkişaf etdirməlidirlər. Unutmayaq ki, bizim bu günümüz kimi, sabahımız da müstəqil dövlət uğrunda mübarizədən qida alıb, onu qorumaqla, suverenliyimizi və azadlığımızı daha da möhkəmləndirməliyik.

**Ramin SALMANOV,**
**Salyan Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru.**